***Cəlal Bəxtiyar oğlu QƏFƏRLİ***
***magistrant,***
***E-mail: qeferlili 23@ gmail.com***

***Lalə Rasim qızı MƏCİDOVA***
***Baş müəllim,***
***Azərbaycan Kooperasiya Universiteti***
***E-mail: m.lala19@mail.ru***

# AQRAR SAHƏDƏ İSTEHSAL AMİLLƏRİNDƏN İSTİFADƏNİN TƏHLİLİ

***Xülasə***

Məqalədə yeni iqtisadi islahatlar şəraitində aqrar sahədə istehsal prosesində yeni xüsusiyyətlər, maliyyə mənbələri və stimullaşdırma mexanizmləri tələb edilməsi ön plana gətirilir. Əsas məqsəd isə yeni texnologiyalar əsasında, məhsuldarlığın yüksəldilməsi yolu ilə bazar tələblərinə uyğun məhsul həcminin, onun keyfiyyət və kəmiyyət göstəricilərinin yaxşılaşdırılmasından ibarətdir.

***Açar sözlər: aqrar sahə, istehsal amilləri, iqtisadi islahatlar, mülkiyyət münasibətləri, maliyyə mənbələri.***

***

Ulu öndər Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan ətraf mühitin mühafizəsi və davamlı inkişafa çox diqqət yetirməyə başladı. Heydər Əliyev Azərbaycanın müxtəlif ekosistemləri, o cümlədən meşələri, dağları və Xəzər dənizinin sahilyanı ərazilərini qorumaq üçün səylər göstərmişdir. Təbii ehtiyatların davamlı idarə olunmasını təmin etmək və çirklənməni minimuma endirmək üçün ekoloji qanunlar və qaydalar gücləndirilmişdir. Bundan əlavə nəsli kəsilməkdə olan növlərin qorunması və biomüxtəlifliyin qorunmasını təşviq etmək üçün addımlar atıldı.

Bazar münasibətləri şəraitində aqrar sahədə sabitliyin yaradılması və dayanıqlı inkişafın təmin olunması-bu sahədə həyata keçirilən iqtisadi islahatların dərinləşdirilməsindən və istehsal amillərindən səmərəli istifadənin təmin edilməsindən asılıdır. 1995-ci ildən başlayaraq, köklü iqtisadi islahatlar aparılmış, mülkiyyət münasibətləri yenidən qurulmuşdur. Aqrar sahədə həyata keçirilən iqtisadi islahatların birinci mərhələsi başa çatmışdır. Bu mərhələ kənddə müxtəlif təsərrüfat subyektlərinə əsaslanan çoxukladlı iqtisadiyyatın formalaşdırılması, iqtisadi böhranın qarşısının alınması və onun sabitliyinə nail olunması ilə xarakterizə edilə bilər.

Ümumiyyətlə, yeni iqtisadi islahatlar şəraitində aqrar sahədə istehsal prosesi yeni xüsusiyyətlər, maliyyə mənbələri və stimullaşdırma mexanizmləri tələb edir. Əsas məqsəd isə yeni texnologiyalar əsasında, məhsuldarlığın yüksəldilməsi yolu ilə bazar tələblərinə uyğun məhsul həcminin, onun kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasından ibarətdir.[1, səh.18].

Təhlillər göstərir ki. aqrar sahədə istehsal prosesi təkrar olunan və bir - biri ilə daimi əlaqədə olan amillərdən ibarət olub, ictimai xarakter daşıyır. Çünki bu prosesdə istehsalçılar öz fəaliyyət və imkanlarını birləşdirərək, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalını həyata keçirirlər. Həmin prosesdə məhsulları əldə etmək məqsədilə, iqtisadi resurslar sərf edilərək işlədilir.

Məhsul və xidmətlər istehsalında iştirak edən resursları iqtisadi ədəbiyyatlarda istehsal amilləri adlandırırlar. Qeyd olıındıığu kimi, bu amillərə təbii (torpaq), əmək, kapital və sahibkarlıq resursları daxildir. Göstərilən ilk üç amil məhz sahibkarlıq fəaliyyətinin bilavasitə təsiri nəticəsində hərəkətə gəlir və istehsal prosesi baş tutmuş sayılır. Maraq doğuran cəhət ondan ibarətdir ki, sahibkar (istehsalçı) istehsal etdiyi məhsulları, əvvəlki üç amilin sahiblərinə bazar vasitəsilə reallaşdırır. Dörd amil arasında qarşılıqlı mübadilə, hərəkət və yerdəyişmə prosesləri həyata keçirilməklə, onların sahibləri arasındakı münasibətlərin özü təkrarlanır. Başqa sözlə desək, bu zaman aqrar istehsalda yaranan münasibətlər təkrar istehsal edilir. [2, səh. 42].

Aqrar sahədə yuxarıdakı istehsal amillərinin hər biri özünəməxsus yerə və mövqeyə malikdirlər. Bu isə aşağıdakılarla səciyyələnir:

- əmək (insan) amili kənd təsərrüfatı məhsullarının istehsalı və emalına yönəldilmiş fiziki və əqli fəaliyyət bacarığıdır. Bu amilin istifadəsi üçün ödənilən qiymət - əməyin ödənişi, yaxud əməkhaqqından ibarətdir;
- təbii resurslar (torpaq) amili aqrar istehsalın ən mühüm və vacib ünsürüdür. Əksər iqtisadi ədəbiyyatlarda təbii amillər əvəzinə, torpaq amili terminindən istifadə edilir. Bu ifadə, xüsusən təbii resurslar istehsal amili kimi işləndikdə, daha geniş tətbiq olunur. Torpaqdan istifadə üçün ödəniş qiyməti renta adlandırılır və bu ödəniş, əslində torpaq sahiblərinin gəlirlərini təşkil edir;
- aqrar sahədə kapital ən mühüm istehsal amillərindən biri olmaqla, əməyin məhsuldarlıq səviyyəsinin yüksəlməsinə xidmət edir. Bu sahədə kapital adı altında pul vəsaitləri də nəzərdə tutulur ki, onun vasitəsilə istehsal prosesinin fiziki, yaxud maddi ünsürləri əldə olunur;
- sahibkarlıq amili isə əmək fəaliyyətinin idarəetmə və təşkilati vərdişlərdən ibarət xüsusi formasıdır. Sahibkarın əsas vəzifəsi - yuxarıda qeyd olunan hər üç istehsal amilinin daha səmərəli və rasional üsullarla birləşdirilməsindən ibarətdir. Sahibkar uğur qazandıqda mənfəət əldə edir, uğursuzluq alındıqda isə ziyana düşür. Beləliklə, sahibkarlıq istifadəsinin mövcud vəziyyətini və təhlilini nəzərdən keçirək.

Ən mühüm istehsal amili hesab olunan torpaq, ümumilik mövcudluğunun təkzibolunmaz cəhəti, şərtidir. Kənd təsərrüfatında torpaq dedikdə, onun üst qatı, yəni münbit hissəsi nəzərdə tutulur. Üst qatın keyfiyyəti kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını və son nəticədə isə, aqrar istehsalın rentabelliyini müəyyən edir. Bu sahədə torpaq həm də əmək predmeti kimi çıxış edir. Əmək predmeti kimi onun xüsusiyyətləri aşağıdakılarla səciyyələnir:

- torpağın istehsal amili kimi qeyri- münbitliyə malik olması, belə ki, torpaq sahəsini bir yerdən götürüb başqa yerə aparmaq və ondan digər məqsədlər üçün istifadə edilməsinin qeyri - mümkünlüyü;

- ayrı-ayrı sahələrin münbitliyində fərqlərin mövcud olması, burada torpaqların həm təbii münbitliyi, həm də obyektiv iqlim amilləri (vegetasiya dövrünün müddəti, yağışların miqdarı və s.) təsir edir;

- torpaq sahələrinin istehsal amili (predmeti) kimi ölçüsünün artırılmasının mümkünsüzlüyü;

- torpaq sahəsinin azalması isə ancaq şərti ola bilər (məsələn, torpaq sahəsindən istifadə olunmaması və yaxud səmərəsiz istifadə əkinə yararlı sahələri aktiv təsərrüfat dövriyyəsindən çıxara bilər və s. [3, səh 57].

İqtisadçı alim Həmzə Xəlilov aqrar istehsalda postislahat struktur dinamikasının səciyyəsini tədqiq edərək bu qənaətə gəlir ki, "çoxsahəli kənd təsərrüfatı Azərbaycanda aqrar inkişafın mühüm atributudur. İlk növbədə, ölkənin malik olduğu zəngin torpaq və təbii-iqlim potensialı ilə bağlı olan bu amil, aqrar sahənin inkişaf hədəflərinə - ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı məşğulluğun artırılması, aqrar sferada çalışanların gəlirlərinin yüksəldilməsinin mühüm şərti kimi çıxış edir. Çoxsahəli kənd təsərrüfatı dirçəldilmədən əkinçilik və heyvandarlıq xammalının emalı məhsullarının ixracı əsasında iqtisadi inkişaf imkanları reallaşdırılmamış qalır" [4]

Müşahidələr göstərir ki, həyata keçirilən islahatların qanunvericilik bazasının inkişafı gedişində, ölkəmizdə mütərəqqi aqrar sistemin formalaşdırılmasına müəyyən hüquqi təminatın yaradılması mümkün olub. Məsələn, "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununda [5, səh 31] kənd təsərrüfatı təyinatlı torpaqların istehsalçının xüsusi mülkiyyətinə verilməsi, həmçinin torpaq mülkiyyətçilərinin torpağı icarəyə vermək, satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, vərəsəlik üzrə və irsən vermək hüquqları təsbit edilib.

Torpaq yeganə istehsal vasitəsidir ki, artıb-azalmır və məkanca yerini dəyişmir. Lakin torpağın istifadə vəziyyətindən asılı olaraq keyfiyyəti, məhsuldarlığı dəyişilə bilir. Torpaqlardan səmərəli istifadə edildikdə onun keyfiyyəti yaxşılaşır, məhsuldarlığı artır. Buna görə də torpaqdan elə səmərəli istifadə etmək lazımdır ki, cəmiyyətin yaşayıb inkişaf etməsi üçün zəruri olan nemətləri istehsal etmək mümkün olsun.

Ümumiyyətlə, Respublikamızın torpaq balansını təhlil etdikdə aydın olur ki, ümumi torpaq sahəsi 8641506 hektardır ki, bunun da 1432616 hektarı və ya 16,5%-i suvarılan torpaq sahələridir. Ümumi torpaq sahəsinin 4524073 hektarı və ya 52,2 % -i kənd təsərrüfatına yararlıdır. Suvarılan torpaq sahəsinin isə 1287361 hektarı və ya 89.8%-i kənd təsərrüfatına yararlıdır. Kənd təsərrüfatına yararlı ümumi torpaq sahəsinin 1650153 hektarını və ya 36,5%-ni, suvarılan torpaq sahəsinin isə 1106065 hektarını və ya 85,9 % -ni əkin sahəsi təşkil edir. Ümumi torpaq sahəsinin 158591 hektarı və ya 1,8%-i çoxillik əkmə, 45630 hektarı və ya 0,5 %-i dincə qoyulmuş sahə, 109689 hektarı və ya 1,2%-i biçənək, 2560010 hektarı və ya 29,6%-i isə örüş-otlaq sahələridir. Suvarılan torpaq sahələrində isə çoxillik əkmələr əkin yerindən sonra 7,9%-lə ikinci yeri tutur. Aparılmış təhlillər onu göstərir ki, örüş-otlaq sahələri ümumi torpaq sahələri içərisində çoxluq təşkil edir. Bu isə təbii şəraitlə bağlıdır. İkinci yeri 2815732 hektarla və ya 32,6%-lə sair torpaqlar, üçüncü yeri 1038814 hektarla və ya 12%-lə meşə sahələri, sonrakı yeri isə 258095 hektarla və ya 3% -lə həyətyanı sahələri tutur.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı (1999-2000-ci illər)".
2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002 - 2005 - ci illər)".
3. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu.
4. "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Qanunu.
5. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanunu.



***магистр Джалал Бахтияр оглы Гафарли***

***Электронная почта: gaferlili 23@gmail.com***
***Ст. пред. Лала Расим кызы Меджидова***
***Электронная почта: m.lala19@mail.ru***
***Азербайджанский Университет Кооперации***

**Анализ использования факторов производства в сельскохозяйственной сфере**

***Резюме***

В статье в условиях новых экономических реформ производственный процесс в аграрной сфере требует новых особенностей, финансовых источников и механизмов стимулирования. Основная цель – улучшение объема продукции, ее качественных и количественных показателей в соответствии с требованиями рынка за счет повышения производительности на основе новых технологий.

***Ключевые слова: аграрная сфера, факторы производства, экономические реформы, отношения собственности, финансовые источники.***

***Master Jalal Bakhtiyar Gafarli***
***E-mail: gaferlili 23@ gmail.com***
***head teacher Lala Rasim Majidova***
***E-mail: m.lala19@mail.ru***
***Azerbaijan Cooperation University***

**Analysis of the use of production factors in the agricultural field**

***Summary***

In the article, in the conditions of new economic reforms, the production process in the agrarian field requires new features, financial sources and stimulation mechanisms. The main goal is to improve the product volume, its quality and quantity indicators in accordance with the market requirements by increasing productivity on the basis of new technologies.

***Key words: agrarian area, production factors, economic reforms, property relations, financial sources.***